**UOT 75+730**

**Nərmin Azad qızı Eminbəyli**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, müəllim**
**e-mail: narmin.eminbayli@yahoo.com**

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCANIN PORTRET HEYKƏLTƏRAŞLIĞININ ŞƏHƏR MÜHİTİNDƏ YERİ

**Xülasə:** Müstəqilik dövrü Azərbaycan heykəltəraşlığında portret janrı yeni xüsusiyyətlərlə zənginləşmişdir. Portret janrının müstəqillik dövründəki inkişafına nəzər yetirsək, onda sənətkarların daha çox həyat müşahidələrinə əsaslandıqlarını söyləyə bilərik. Düzdür, heykəltəraşlarımızın yaradıcılığında uzaq-yaxın keçmişimizin şanlı səhifələrini rövnəqləndirən şəxsiyyətlərin portretləri də tez-tez yer almışdır, amma bununla belə, sənətkarların bilavasitə, müasirlərinin obrazlarına davamlı müraciət etdiklərini qeyd etməliyik.

**Açar sözlər:** heykəl, dəzgah, müstəqil, plastika, obraz, portret.

Azərbaycan heykəltəraşları tərəfindən yaradılan və respublikamızla yanaşı onun hüdudlarından uzaqlarda qoyulan bir çox portret abidələrdə forma-biçim özünəməxsusluğuna rast gəlmək mümkündür. Bu mənada Ömər Eldarov, Tokay Məmmədov, Fuad Salayev, Natiq Əliyev, Akif Əsgərov, Azad Əliyev, Fazil Nəcəfov və b. ərsəyə gətirdiyi abidələrin bir çoxunda ideoloji müstəqilliyin onlara verdiyi imkanların praktikada yaddaqalan tətbiqini görmək mümkündür.

Akademik heykəltəraş Ömər Eldarovun 2002-ci ildə açılışı baş tutan portret əsərində - Xalq rəssamı Əzim Əzimzadəyə həsr olunmuş kompozisiyada (memarı A. Aqaronov) ilk növbədə cəlbedici forma-biçim həllinə görə diqqət çəkir. Abidənin təsirliliyinin əldə olunmasında onun orijinal forma-biçimə - iki hissəli kompozisiyaya malik olmasının böyük əhəmiyyəti vardır. Bu iki hissəni Əzim Əzimzadənin qranit portreti və onun qəhrəmanlarının tuncdan tökülmüş obrazları təşkil edir.

Doğrudan da, düşüncəli baxışlarını bütün yaradıcılığı boyu yaratdığı müxtəlif səpkili obrazlardan ibarət kompozisiyaya yönəldən rəssamın portret-abidəsi ilk növbədə forma-biçiminə görə cəlbedicidir. Belə ki, Ö. Eldarov onun portretinə ənənəvi forma əvəzinə, qranit blokundan tam "azad olunmamış" görkəm verməklə kifayətlənmiş və bu "natamam"lıqla da obrazın üzərində ucaldığı qranit kürsünü portretin davamına çevirə bilmişdir. Bununla həm də obrazın monumentallığına nail olan müəllif, onun qonşuluğundakı müxtəlif

tutumlu fiqurlar məcmusu ilə kompozisiyanın bütünlükdə obrazlılığına nail olmuşdur. Təəssüf ki, son dövrlərdə bu əsər əvvəlki geniş yerindən İçərişəhərə gətirilmiş və darlığı adi gözlə belə görünən məkanda yerləşdirilmişdir. Bu da onun ilk vaxtlar tamaşaçısına aşılaya biləcək bədii-mənəvi dəyərlərin duyulası dərəcədə azalmasına səbəb olmuşdur.

Şəhər mühitində portret abidələrin ucaldılması müstəqilik dövrü ilə yanaşı Sovet dövründə də Azərbaycanın bir çox şəhərlərində baş tutmuşdur. Bu abidələrə misal olaraq Mikayıl Müşfiqin, Ayna Sultanovanın və Naxçıvan şəhərində akademik Ömər Eldarov tərəfindən ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin portret abidəsini göstərmək olar. Ümummilli lider Heydər Əliyevin obrazı Ömər Eldarovun yaradıcılıq bioqrafiyasının əsas səhifələrindən birini təşkil edir. Ö. Eldarov ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüləndən sonra 1987-ci ildə Naxçıvan şəhərində Heydər Əliyevin büstü ucaldılmışdır. Ömər Eldarov yeganə heykəltəraşdır ki, Heydər Əliyevin portretini birbaşa canlı naturadan işləmişdir.

Azərbaycan heykəltəraşlarının yaşlı nəslinin təmsilçisi olan Tokay Məmmədov müstəqillik illərində də əvvəlki şövqlə yaradıcılıq axtarışlarını davam etdirmişdir. Tişə ustası Tokay Məmmədov uşaq həkimi olmuş Əbülfəz Qarayevin Uşaq xəstəxanasının qarşısında büstünü ucaltmışdır. Heykəltəraş Əbülfəz Qarayevin portret-büstündə obrazın incəliyini diqqətə çatdırmış, həmçinin, portretdə sadə və incə detalları çox məharətlə diqqət mərkəzində saxlaya bilmişdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Sadıqov heykəltəraş Tokay Məmmədovun yaratdığı Əbülfəz Qarayevin büst portreti haqqında qeyd edir ki, "Tokay Məmmədov obrazların təcəssümündə xırda detallara uymadan ümumiləşdirilmiş plastik obraz yaradır. Mərmər büst-abidələrin plastik quruluşu, frontallığı, fəzada müəyyən bir istiqamətə yönəldilməsi, həcmlərin qapalılığı bu abidələrə daha aydın monumental görkəm verir. Burada monumentallıq zahiri görünüşlə əlaqədar olmaqdan daha çox obrazların məzmun zənginliyi və bitkinliyi ilə əlaqədardır" [1; s. 21].

Xalq rəssamı Fuad Salayevin büst heykəli ümummilli liderimiz Heydər Əliyevin obrazında dünyəvi siyasi xüsusiyyətləri çox məharətlə tamaşaçıya çatdıra bilmişdir. Heykəltəraş bu abidəni Milli Təhlükəsizlik Nazirliyinin akademiyası ərazisində 2006-ci ildə ucaltmışdır. Akademiyanın şöhrət muzeyinin qarşısında qoyulmuş "Ali Baş Komandan" adlı heykəl hündür postament üstündə yerləşdirilmişdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Emin Ələkbərov qeyd edir ki, "Fuad Salayev hansı mövzuda işləməsindən asılı olmayaraq özünəməxsus düşüncə tərzini, dəsti-xəttini qoruyub saxlamağa nail olub və həmişə sözün əsl mənasında

inkişaf etməyi, ucalmağı bacaran bir sənətkar kimi əsərlərinin tamaşaçılar, sənətsevərlər, sənətşünaslar, tədqiqatçılar tərəfindən qiymətləndirilməsinə önəm vermişdir. Bunun nəticəsidir ki, heykəltəraşın əsərləri xalq, dövlət tərəfindən yüksək dəyərə layiq görülmüşdür” [2; s. 19].

Xalq rəssamı Natiq Əliyevin əsərləri xüsusi maraq kəsb edir. O, müxtəlif materiallarda ərsəyə gətirdiyi portretlərdə inandırıcılıqla səciyyəviliyin elə bir vəhdətinə nail olmuşdur ki, tamaşaçının göz-gözə qaldığı insanlar yaşanan ömürlərinin yaddaqalan bədii plastik tutumu kimi baxılırlar. Heykəltəraşın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə (2004, 2005, 2009), dövlət xadimi Mustafa Kamal Atatürkə (2013), mesenat Hacı Zeynalabdin Tağıyevə (2013), dramaturq Hüseyn Cavidə (2012), bəstəkar Üzeyir Hacıbəyliyə (2011), şair Bəxtiyar Vahabzadəyə (2009), bəstəkar Ferens Listə (2012) və səyyah Tur Heyerdala (2008) həsr olunmuş portretlərini bədii obraza yüksəlmənin yaddaqalan nümunələri hesab etmək olar [3; s. 12].

Azərbaycan heykəltəraşlarının müxtəlif dövrlərdə yaratdığı görkəmli şəxsiyyətlər qalereyasında şairlərin obrazları aparıcı sahələrdən birini tutur. Ölümündən sonra obrazına tez-tez müraciət olunan şairlərin birincisi yəqin ki, Xalq şairi Səməd Vurğun olmuşdur. Dünyasını dəyişməsindən cəmi beş il sonra Bakıda şairə möhtəşəm abidənin ucaldılması heç şübhəsiz onun hələ sağlığında duyulası el məhəbbəti qazanmasının bariz nümunəsidir. Bundan sonrakı dövrdə də onun həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda abidələrinin ucaldılması bunu təsdiqləyir. Bu mənada Seyfəddin Qurbanovun Kiyevdə (2006), Fazil Nəcəfovun Qazaxda (1996) və Ramiz Məmmədovun Qazaxda (1993) S. Vurğuna ucaldılmış abidələrinin adını çəkmək mümkündür.

Azərbaycan Respublikası Prezidentinin, Birinci xanım Mehriban Əliyevanın, ölkənin tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə Bakı şəhərinin mərkəzində 2014-cü ilin fevral ayının 3-də dahi Azərbaycan bəstəkarı Qara Qarayevin monumental abidəsinin açılışı həm paytaxt sakinləri, həm də heykəltəraş, Xalq rəssamı, Prezident təqaüdçüsü Fazil Nəcəfovun həyatında əlamətdar hadisə olmuşdur.

Sənətşünas Q. Qasımov qeyd edir ki, “Fazil Nəcəfov Qara Qarayevin həyat və yaradıcılığını dərindən və diqqətlə öyrənmişdir. Onun əsərlərini dəfələrlə dinləmiş, haqqında deyilənləri, yazılanları, filmləri sanki bir tədqiqatçı kimi diqqətlə araşdırmışdır. Elə bu araşdırmalar zamanı da abidənin ilkin eskiz variantları meydana gəlmişdir. Qara Qarayev dühasının hər yeni təfərrüatını, onun dahiyanə musiqi dünyasının fəlsəfi mahiyyətini anlamaq, hər dəfə yeni fikir və ideyanın yaranmasına səbəb olur, heykəltəraşın yuxusunu ərşə çəkirdi. Abidənin ucaldılması üçün sərf olunan üç ilin böyük bir hissəsini Fazil Nəcəfov məhz bu ideyalar burulğanında keçirmişdir. Emalatxanasına hər

dəfə gedəndə çoxsaylı eskizlərin, rəsmlərin, forma axtarışlarının şahidi olurduq. Hətta mənə elə gəlirdi ki, bu eskizlərin, axtarışların axınında nəhayətə varmaq, sonuncu variant üzərində dayanmaq mümkün olmayacaq. Çünki Qara Qarayevin şəxsiyyətinin böyüklüyü və heykəltəraşın istedad ümmanında bir nöqtədə dayanması mümkünsüz bir işə bənzəyirdi. Bəstəkarın novatorçu xüsusiyyətini bilən heykəltəraş başa düşürdü ki, bu şəxsiyyətə ucaldılan abidə mürəkkəb olmalı, birmənalı və bəsit görünməməli, özündə yeni, nə isə qeyri- ənənəvi məzmun daşımalı və buna uyğun formaya malik olmalıdır" [4; s. 20].

Söhbət belə irimiqyaslı şəxsiyyətdən getdiyi üçün dəzgah heykəltəraşlığı əsərlərindən (hətta iri ölçülü olanlarından) fərqli olaraq, bu abidə öz janr spesifikasına uyğun olaraq müəllifə xas olmur. Abidə üzərində iş zamanı heykəltəraş çoxsaylı açıq-aşkar aspektləri nəzərdən keçirməli olmuşdur. Burada dahi bəstəkarın yaxınlarının, əzizlərinin arzusunu da nəzərə almamaq mümkün deyildi. Abidə şəhər, onun sakinləri və qonaqları tərəfindən, onun yanından hər gün ötüb keçən, onun ətrafında istirahət edən insanlara necə təsir edəcək və necə qəbul olunacaq? Nəhayət, abidə yerində ucaldıldı və tarixin bir səhifəsinə çevrildi.

Müstəqillik dövründə heykəltəraşların yaratdığı hər bir portret reallıqda müəyyən yaşantının ifadəsi, fərqli bir tərzin daşıyıcısıdır. Bu mənada Azərbaycan heykəltəraşlarının həm yaşlı, həm də gənc nəslinə mənsub olan sənətkarlarının müstəqillik dövründə portret janrında maraqlı əsərlər yaratdığını vurğulamaq mümkündür.

**Ədəbiyyat siyahısı:**


1. Sadıqov, S. Tokay Məmmədovun yaradıcılığının bədii xüsusiyyətlərinin Azərbaycan heykəltəraşlığında əhəmiyyəti: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. – Bakı: -2013.
2. Ələkbərov, E. Heykəltəraş Fuad Salayevin yaradıcılığı: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. - Bakı: -2016.
3. Qasımov, F. Xalq rəssamı Natiq Əliyevin yaradıcılığı müasir Azərbaycan heykəltəraşlığı kontekstində: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. - Bakı: -2014.
4. Qasımov, Q. Heykəltəraş Fazil Nəcəfovun yaradıcılığında ənənə və müasirlik: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. – Bakı: -2015.

**Нармин Азад кызы Эминбейли**

**ПОРТРЕТНАЯ СКУЛЬПТУРА АЗЕРБАЙДЖАНА В ГОРОДСКОЙ СРЕДЕВ ПЕРИОД НЕЗАВИСИМОСТИ**

**Резюме:** В азербайджанской скульптуре за годы независимости жанр портрета обогатился новыми чертами. Если посмотреть на развитие жанра портрета в период независимости, то можно сказать, что художники больше опирались на жизненные наблюдения. Правда, в работах наших скульпторов часто встречаются портреты личностей, освещающих славные страницы нашего далекого прошлого, но следует отметить, что художники постоянно обращаются к образам своих современников.

**Ключевые слова:** скульптура, станок, независимый, пластика, образ, портрет.

**Narmin Azad qizi Eminbeyli** **THE PLACE OF PORTRAIT SCULPTURE IN THE URBAN ENVIRONMENT DURING THE INDEPENDENCE PERIOD OF AZERBAIJAN**

**Summary:** During the independence period of Azerbaijani sculpture the portrait genre was enriched with new features. Looking through the development of the portrait genre during the period of independence, then one can say that artists have been based more on life observations. It is true that in the activities of our sculptors there are portraits of personalities who glorify the brilliancy pages of our distant past, however, it should be noted that artists are constantly referring to the images of their contemporaries.

**Key words:** sculpture, worktable, independent, plasticity, image, portrait.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 29.04.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**